# İbtidai siniflərdə orfoqrafiya-orfoepiya bacarıqlarının verilməsi üzrə işlərin təşkili

**Gülər Tahir qızı Ağaquliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** guleragaquliyeva98@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. F.Q. Səfərəliyeva,
p.ü.f.d. dos. P.S. Paşayeva

**Açar sözlər:** orfoqrafiya, dil, təlim, orfoepiya, ibtidai sinif, qaydalar, dərslik
**Ключевые слова:** орфография, язык, обучение, орфопэпия, начальная школа, правила, учебник
**Key words:** spelling, language, teaching, orfhoepy, elementary school, rules, textbook

Azərbaycan dili təliminin ən mühüm vəzifəsi şagirdlərə orfoqrafiya və durğu işarələri üzrə möhkəm vərdişlər aşılamaq, həmin vərdişlərin köməyi ilə onları qrammatik hadisələri şüurlu dərk etməyə alışdırmaq, onlarda şifahi və yazılı nitqi inkişaf etdirmək, doğma dilə maraq və məhəbbət tərbiyə etməkdən ibarətdir. Azərbaycan dilinin orfoqrafiya qaydaları o zaman daha şüurlu mənimsənilə qala bilər ki, həmin qaydalar fonetika, söz yaradıcılığı və morfologiya bəhsləri ilə əlaqəli şəkildə mənimsənilmiş olsun. Məsələn, saitlərdən danışarkən fonetikada saitlərin orfoepiya və orfoqrafiya qaydalarının öyrənilməsi həm bu qaydaların anlaşılmasına, yaddaşda möhkəmlənməsinə kömək edir, həm də saitlərin daha dərindən mənimsənilməsinə gətirib çıxarır.

İbtidai sinif şagirdləri nitqdə çox söz işlətmələrinə baxmayaraq onun arxasında duran əşya və hadisəni təsvir etməkdə çətinlik çəkirlər. Sözün mətn daxilindəki mənasına fikir vermir, bəzən ən sadə sözləri dəqiq mənasında başa düşmürlər. Buna görə də I sinifdən başlayaraq hər bir sözün, hətta şagirdlərə tanış sözün mənası üzərində fikirləşmək, onu başa düşmək vərdişi üzərində işləmək lazımdır. Bu məqsədlə də aşağıdakı iş növlərindən istifadə etmək çox əhəmiyyətlidir:

1. Tanış sözlərin mənalarını dəqiqləşdirmək.
2. Sözün məcaziliyi və çoxmənalılığı üzrə işlər.
3. Leksik və frazeoloji vahidləri nitqdə işlətmək.
4. Sinonimika, sözün üslubi çalarları üzrə işlər (5).

Buradan belə bir nəticəyə gəlirik ki, məktəbdə aparılan ana dili məşğələləri elə qurulmalıdır ki, şagirdlərin mədəni cəhətdən yüksəlsin. 70-ci illərdə aparılan tədqiqat yeddiyaşlıların lüğət ehtiyatında 4080 sözün olduğunu müəyyənləşdirmişdi. Onların yalnız 2177-si şagirdlərin fəal lüğətinə daxil olan sözlərdir. Deməli, yeddiyaşlılar mənasını az-çox başa düşdükləri, lakin nitqdə işlətmədikləri xeyli söz bilirlər. Bu sözlər onların qeyri-fəal lüğətini təşkil edir. Uşağın öz fikrini ifadə etmək üçün işlətdiyi sözlər isə onun fəal lüğətinin həcmini göstərir. Şagirdin qeyri-fəal lüğət fondunu fəallaşdırmaq, o sözləri müstəqil nitq praktikasına gətirmək üçün məktəblərimizdə, əsasən aşağıdakı istiqamətlərdə iş aparılır:

1. Sözü müxtəlif birləşmələrin tərəfi kimi işlətmək;
2. Sözü müxtəlif leksik məna çalarında işlətmək;
3. Sözü və ya sözləri cümlələrdə işlətmək;
4. Frazeoloji vahidləri nitqdə söz qarşılığı ilə əvəzləmək;

5. Atalar sözü və məsəllərdən nitq parçalarında istifadə;
6. Müşahidə və şəkil üzrə nağıl (və ya inşa).

Tanış sözlərin mənalarını dəqiqləşdirmək. Şagirdlər oxuduqları mətnlərlə əlaqədar olaraq çoxlu yeni sözlərlə rastlaşırlar. Bəzən ibtidai sinif müəllimləri oxunan mətndəki tanış olmayan bir neçə sözün mənasını izah etməklə kifayətlənir, halbuki uşaqlar çox vaxt adi sözləri, hətta onlara tanış olan sözləri izah etməkdə belə çətinlik qarşısında qalırlar. Bilirik ki, çoxmənalı sözlərin bütün məna çalarları eyni hüquqa malik deyil. Bu mənalardan biri həmin sözün ilk həqiqi, müstəqil mənası, qalanları isə törəmə-məcazi mənalardır. İbtidai sinif şagirdlərinin səhvi də məhz bu fərqi ayıra bilməməkdən irəli gəlir. Ona görə də ibtidai siniflərdən başlayaraq şagirdləri sözlərin çoxmənalılığı ilə tanış etmək vacibdir.

Şagirdlərin dilimizin qrammatik formalarını şüurlu dərk etmələri, onların lüğət ehtiyatını sürətlə mənimsəmələri üçün geniş imkanlar açır. Hər hansı qrammatik anlayış və terminin mənimsənilməsi birbaşa lüğət ehtiyatının dəqiqləşdirilməsinə xidmət edir. Şagirdlər yalnız qrammatik qaydanın mənasını dərk etdikdə, onu müvafiq dil materialına aid edərək həmin sözlərlə ifadə etməyi bacardıqda anlayışı başa düşürlər. Bu isə dilin forması ilə məzmunu arasında asılılığın dərk olunması deməkdir.

İbtidai sinifdən başlayaraq orfoqrafiya təlimi ədəbi tələffüzün, orfoepik normaların öyrədilməsi ilə paralel getməlidir.

Orfoepik vərdişləri geniş mənada anlamaq lazımdır. Bunu yalnız vurğunu düzgün işlətmək, yaxud sözü doğru tələffüz etmək mənasında deyil, eyni zamanda ədəbi dilin ümumi saflıq və gözəlliyini saxlamaq, onun ahəngdarlıq və rəngarəngliyini gözləmək lazımdır. Orfoepik vərdişləri möhkəmləndirmək üçün birinci şərt şagirdlərdə həmişə məzmunlu, düzgün və mədəni danışıq vərdişləri yaratmaqdır. İkinci şərt müəllimin saf ədəbi dilə sahib olmasıdır. Üçüncü şərt orfoepik vərdişləri tərbiyə etmək üçün müntəzəm surətdə aşağıdakı çalışmaların aparılmasıdır:

a) Şifahi nitqin doğru və ifadəli olması üzərində iş;

b) şagirdlərə yalnız yaxşı şeir parçalarını deyil: eyni zamanda bədii, elmi-kütləvi nəsr əsərlərinin nümunələrini də əzbərlətmək;

c) şagirdlərin oxu mədəniyyətini artırmaq üzərində müəllimin rəhbərliyi;

v) ayrı-ayrı şagirdlərin nitqlərində olan qüsurları aradan qaldırmaq üçün onlarla məşğul olmaq;

d) şagirdlərin şifahi və yazılı nitqində olan qüsurları sistematik surətdə aradan qaldırmaq;

e) orfoepik məşğələlərdə əyani vəsaitlərdən: bədii, elmi-kütləvi əsərlərdən, orfoepik cəhətdən gözəl nitq nümunələrini əks etdirən cədvəllərdən istifadə olunmalıdır.

Qrammatikanın mənimsənilməsi və ya orfoqrafik vərdişlərin möhkəmləndirilməsi ilə əlaqədar olaraq şagirdlərə xüsusi formalarda olan bəzi tapşırıqlar verməlidir. Bu tapşırıqlar şagirdlərin bilik və vərdişlərində ortaya çıxan nöqsanlarla əlaqədar olaraq verilir. Belə tapşırıqlar uzun və yorucu məsləhət saatları vasitəsi ilə deyil, müəllimin qısa və məzmunlu izahatı ilə aparılır. Ana dilinin tədrisi prosesində müxtəlif çalışmaların yerinə yetirilməsi uşaqlarda müşahidəçilik, diqqətlilik, fəallıq, müstəqillik, yaradıcılıq kimi keyfiyyətlərin tərbiyə olunmasına güclü təsir göstərir.

**Məqalənin aktuallığı.** Azərbaycan dili təliminin ən mühüm vəzifəsi şagirdlərə orfoqrafiya və durğu işarələri üzrə möhkəm vərdişlər aşılamaq, həmin vərdişlərin köməyi ilə onları qrammatik hadisələri şüurlu dərk etməyə alışdırmaq, onlarda şifahi və yazılı nitqi inkişaf etdirmək, doğma dilə maraq və məhəbbət tərbiyə etməkdən ibarətdir. İbtidai sinifdən başlayaraq orfoqrafiya təlimi ədəbi tələffüzün, orfoepik normaların öyrədilməsi ilə paralel öyrədilməlidir.

Məqalənin də məhzbu kimi vacib bir mövzuya həsr olunduğunu nəzərə alsaq, onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ibtidai siniflərdə ədəbi tələffüzlə yazı qaydalarının əlaqəli öyrədilməsi məsələləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də gənc tədqiqatçılar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Ümumtəhsil məktəblərinin Azərbaycan dili 4-cü sinfi üçün (tədris dili kimi) fənni üzrə dərslik. Bakı, 2019.
2. İsmayılov R, Abdullayeva S., Qasımova X. Azərbaycan dili - 4 (Müəllimlər üçün metodik vəsait). Bakı, 2015.
3. Səfərəliyeva F. Uşaq folkloru və şagirdlərin bədii təfəkkürünün inkişaf etdirilməsi. Bakı, 2014.
4. Kərimov Y. Ana dilinin tədrisi metodikası. Bakı, 2011.
5. Quliyeva S., Balıyev H. Azərbaycan dili təlimi və nitq inkişafı metodikası. Bakı, 1993.


**Г.Т. Агакулиева**

## Организация работы по обучению орфографии и орфоепии в начальных классах

## Резюме

Важнейшая задача обучения азербайджанскому языку - привить ученикам сильные навыки орфографии и пунктуации, научить их осознанно понимать грамматические события, развивать устную и письменную речь, воспитывать интерес и любовь к родному языку. Начиная с начальной школы, обучение правописанию должно идти рука об руку с обучением литературному произношению и орфоэпическим нормам.

**G.T. Agaquliyeva**

## Organization of work on teaching spelling and orfhoepy skills in primary school

## Summary

The most important task of teaching the Azerbaijani language is to instill in students strong spelling and punctuation skills, teach them to consciously understand grammatical events, develop oral and written speech, and foster interest and love for their native language. Starting in elementary school, teaching spelling should go hand in hand with teaching literary pronunciation and orfhoepic norms.

**Redaksiyaya daxil olub:** 14.10.2021